# SOVET AZƏRBAYCANINDA ALMAN KƏNDLƏRİNİN ERMƏNİLƏŞDİRMƏSİ SİYASƏTİ

Məmməd CƏFƏRLİ*

**Annotasiya:** Məqalədə keçmiş SSRİ-nin təhlükəsizlik orqanı olan Daxili İşlər Xalq Komissarlığının (bundan sonra - NKVD) arxiv sənədləri əsasında sovet hakimiyyətinin almanlara qarşı cəza siyasətində erməni amilindən istifadə edilməsi barədə oxuculara məlumat verilir. Almanlar 1818-ci ilin sonundan başlayaraq Azərbaycana köç ediblər. Onlar burada, əsasən indiki Göygöl, Şəmkir, Tovuz və Ağstafa rayonlarının ərazilərində məskunlaşmışlar. 1941-ci ildə Almaniya SSRİ-yə qarşı müharibəyə başlayandan sonra Azərbaycan almanları Qafqazda yaşayan digər almanlarla yanaşı Sibirə və Qazaxıstana deportasiya olunmuşdular. XX əsrin 30-cu illərinə aid NKVD təşkilatının arxiv sənədlərində XIX əsrin əvvəllərindən Azərbaycanda yaşayan alman əhalisinin sovet dövrünə aid (1920-ci ildən sonra) istintaq işləri mövcuddur. Bütövlükdə bolşeviklər tərəfindən Azərbaycan əhalisinə qarşı aparılan repressiya siyasətində almanların yeri xüsusilə seçilir. SSRİ ilə Almaniya arasındakı mürəkkəb vəziyyət Azərbaycan almanlarının taleyində acınacaqlı rol oynamışdır. Uzun illər SSRİ tərəfindən almanlara qarşı aparılan cəza siyasəti məxfi və qadağan olmuş bir mövzu idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra almanların sovet dövründəki acınacaqlı vəziyyəti və onlara qarşı dövlət tərəfindən aparılan siyasət arxiv sənədləri əsasında ictimaiyyətləşdirilmişdir.

***Açar Sözlər:*** *Azərbaycan Almanları, Azərbaycanda Erməniləşdirmə Siyasəti, SSRİ Təhlükəsizlik Orqanı, Helenendorf.*

**Policy of Armenization of German Villages in Soviet Azerbaijan**

**Annotation:** The article informs readers about the use of Armenian factor in the punitive policy of the Soviet government against Germans based on the archives of the Ministry of Internal Affairs of the former USSR (hereinafter - NKVD). Germans began migrating to Azerbaijan from the late 1818s, mainly settling in the present-day territories of Goygol, Shamkir, Tovuz, and Agstafa regions. In 1941, with the start of the war between Germany and the USSR, Azerbaijan Germans, along with other Germans living in the Caucasus, were deported to Siberia and Kazakhstan. Archives of the NKVD organization from the 1930s contain investigation records of Germans living in Azerbaijan since the early 19th century, pertaining to the Soviet era (after 1920). Germans were particularly targeted in the repression policy carried out against the Azerbaijani population by the Bolsheviks. The complex relationship between the USSR and Germany played a pitiful role in the fate of Azerbaijan Germans. For many years, the punitive policy against Germans by the USSR remained a taboo subject. After Azerbaijan regained independence, the pitiful condition of Germans during the Soviet era and the state policy against them were publicized based on archive documents.

***Key Words:*** *Azerbaijani Germans, Armenization Policy In Azerbaijan, USSR Security Body, Helenendorf.*

Almanlar 1818-ci ilin sonundan başlayaraq Azərbaycana köç ediblər. Onlar burada əsasən indiki Göygöl, Şəmkir, Tovuz və Ağstafa rayonlarının ərazilərində məskunlaşmışdılar. 1941-ci ildə Almaniya SSRİ-yə qarşı müharibəyə başlayandan sonra Azərbaycan almanları Qafqazda yaşayan digər almanlarla yanaşı Sibirə və Qazaxıstana deportasiya olunmuşdular (daha ətraflı bax: Mammad Jarfali. Politischer Terror und das Schicksal der Aserbaidschanischen Deutschen. ISBN: 978-3-00-037560-6. Sutgart-2012).

XX əsrin 30-cu illərinə aid keçmiş SSRİ-nin təhlükəsizlik organı olan Xalq Daxili İşlər Komissarlığı (qısa - NKVD) təşkilatının arxiv sənədlərində XIX əsrin əvvəllərindən Azərbaycanda yaşayan alman əhalisinin sovet dövrünə aid (1920-ci ildən sonra) istintaq işləri mövcuddur. Bütövlükdə bolşeviklər tərəfindən Azərbaycan əhalisinə qarşı aparılan repressiya siyasətində almanların yeri xüsusilə seçilir. SSRİ ilə Almaniya arasındakı mürəkkəb vəziyyət Azərbaycan almanlarının taleyində acınacaqlı rol oynamışdır. Uzun illər dövlət tərəfindən almanlara qarsı aparılan cəza siyasəti məxfi və qadağan olmuş bir mövzu idi. Hətta 80-ci illərdə aparılan "aşkarlıq" dövründə də Azərbaycan almanlarına aid sənədlərin aşkarlanması mümkün deyildi. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra almanların sovet dövründəki vəziyyəti və onlara qarşı dövlət tərəfindən aparılan siyasət ilk dəfə olaraq tərəfimizdən ictimaiyyətləşdirilmişdir. (M.Cəfərli. Siyasi terror və Azərbaycan almanlarının taleyi. Bakı-1998).

*Professor. Bakı Avrasiya Universiteti, mammadjafarli@gmail.com

Bu məqalədə NKVD-nin arxiv sənədləri əsasında sovet hakimiyyətinin almanlara qarşı cəza siyasətində erməni amilindən istifadə edilməsi barədə məlumatları oxuculara təqdim edirik.

Almanların sıxışdırılması, vətəndaş hüquqlarının məhdudlaşdırılması təkcə partiya və sovet orqanları tərəfindən (onların əksəriyyəti erməni millətindən təşkil edilmişdi) həyata keçirilmirdi. Bu işdə onlara müxtəlif vaxtlarda Azərbaycana köçmüş və koloniyalarında (Azərbaycanda mövcud olan alman kəndləri - "koloniya" adlanırdılar) muzdurlar kimi çalışan erməni millətindən olan vətəndaşlar da fəal surətdə köməklik edirdilər. Almanlar tərəfindən yaradılmış "Konkordia"nın kənd təsərrüfatı yerlərində əvvəlcə "müvəqqəti muzdurlar" kimi işləyən ermənilər alman kolonistlərini və azərbaycanlıları ildən ilə daha çox sıxışdırırdılar (Konkordia. Wissenschaftliches Informationsbulleten (sentyabr), Bakı-2001).

NKVD-in arxiv fondlarında elə sənədlər var ki, onlar əsasında koloniyalarda işləyən ermənilərin sayını müəyyən etmək olar. Belə sənədlərin birində deyilir ki, "1 yanvar 1928-ci il tarixdə Helenendorfda (indiki Göygöl) müvəqqəti yaşayan və mülki olmayan, bunun nəticəsində də muzdurluqla məşğul olmağa məcbur olan 150 erməni var idi". Arxiv materiallarına əsasən, həmçinin Annenfeldə (indiki Şəmkir) bu müddətdə dəqiq sayı göstərilməyən erməni muzdurları gəlmişdirlər (AR DTX-nin arxivi, inv. N673, s.1-2).

Yaranan vəziyyəti yaxşı başa düşərək, hakimiyyət orqanları almanları sıxışdırarkən ermənilər belə vəziyyəti məharətlə öz məqsədləri üçün istifadə edirdilər. Öz növbəsində cəza orqanları öz siyasətlərini koloniyalarda aparmaq üçün erməni amilindən istifadə edirdilər. Sovet Azərbaycanının təhlükəsizlik təşkilatının yuxarıda göstərilmiş xüsusi məlumatlarında qeyd olunur: "Koloniyalarda alman qolçomaqlarının antisovet davranışı bu formada ifadə olunur: hakimiyyət tərəfindən keçirilən tədbirlərə fəal müqavimət göstərmək; alman gəncləri mühitində pangermanizm ideyalarının üstünlükləri və onun bu ruhda tərbiyə olunması; almanlar və ermənilər arasında mövcud olan milli ədavətlər" (AR DTX-nın arxivi, inv. N671, s.47-48).

NKVD orqanları tərəfindən repressiyaya məruz qalmış və Sibirə sürgün edilmiş alman ailələrin torpaq sahələri və evləri həmin ermənilər tərəfindən zəbt edilirdi. Yaranmış vəziyyətdə almanlar özlərini zorakılıqdan müdafiə edə bilmirdilər. Koloniyalarda yerli almanlarla gəlmə ermənilər arasında ilk baxışda məişət xarakterli toqquşmalar baş verirdi. Almanların hakimiyyət orqanlarına rəsmi müraciətləri ən yaxşı halda cavabsız qalır, əsasən də ərizəçilərin millətçilikdə günahlandırılması ilə başa çatırdı. Təsadüfi deyil ki, əsasən siyasi xarakter daşıyan və almanlar tərəfindən yayılan vərəqələr çoxluğu arasında Sovet Azərbaycanının təhlükəsizlik təşkilatının 1934-cü ilin may ayına olan məlumatlarının birində aşağıdakı fikir qeyd olunmuşdu: "14 may 1934 il. Helenendorf klubunun (mədəniyyət evinin – M.C.) divarları arasında üzərində belə yazı olan vərəqə yapışdırılmışdı: "ermənilər parazitdir, onlar kəndlilərin qanını son damlasına qədər sorurlar" (AR DTX-nin arxivi, inv. N657, s.29).

1940-cı ilin oktyabrında ermənilərin Şamxor (indiki Şəmkir) rayonunda yaşayan almanlara qarşı təzyiqləri barədə çox maraqlı bir məktub tərtib edilmişdi. Həmin sənəddə rayonun müxtəlif dövlət müəssisələrinin rəhbər vəzifələrinə təyin olunmuş ermənilərin siyahısı göstərilir. Almanlar onlara xas olan dəqiqliklə rayondakı vəziyyətin sosioloji təhlilini özünəməxsus şəkildə aparmışlar. Şamxor rayon əhalisinin heç 10 faizini təşkil etməyən ermənilər müxtəlif müəssisələrin rəhbər vəzifələrinin 90 faizini tuturdular. Məktubda həmçinin rayon əhalisinin tam əksəriyyətini təşkil edən əhalinin azərbaycanlı hissəsinin hüquqlarının məhdudlaşdırılması göstərilir.

Bu məktub almanlar tərəfindən rayonun poçt şöbəsi ilə göndərilməmişdi, ona görə ki, onun bütün işçiləri ermənilərdən ibarət idi. Bu, koloniyalarda kütləvi həbslərin baş verdiyi dövrə təsadüf edirdi, ona görə də məktub Alman konsulluğunun yerləşdiyi Batumiyə göndərilmişdi. Oradan isə o, poçtla Bakıya, Azərbaycanın kommunist partiyasının Mərkəzi

Komitəsinə (MK) gəldi. Məktubun MK-nin birinci katibi Mir Cəfər Bağırova ünvanlandığına baxmayaraq o, 27 oktyabr 1940-cı ildə MK-nin katibi etnik erməni Karkaryanın stolunun üstünə gəlib çıxır.

Bu məktubun mətni ilə tanış olaq:

*"Azərbaycan Mərkəzi Komitənin katibi Mir Cəfər BAĞIROV yoldaşa. Sizin diqqətinizə çatdırırıq ki, Şamxor rayonunda 26 kənd soveti vardır. Onlardan cəmi 7-si erməni və 2-si isə alman kəndlərinə aiddir. Şamxorda ermənilər əhalinin heç 10% təşkil etmir. Lakin rəhbər və qeyri-rəhbər məmurların sayını hesablasaq o zaman ermənilərin sayı 90%-dir. Azərbaycanlıların isə sayı demək olar ki yox səviyyəsindədir. Məsələn:*

1. *Partiya rayon komitəsi - birinci katib Yusibov. Sadəcə raykomun başında oturur (fiqur kimi), sükan qatı millətçi olan ikinci katib Manuçarovun əlindədir. O, iki il ərzində Şamxorda azərbaycanlıları sıxışdıraraq hər yerdə erməniləri yerləşdirmişdir. Üçüncü katib Nazarov rus olmasına baxmayaraq əslində Manuçarovun buyruğuna əsasən hərəkət edir. Raykomun qalan işçilərini misal çəkək:*
2. *Təbliğat şöbəsinin müdiri – Voskanyan*
3. *Təşkilat-təlimat şöbəsinin müdiri – Nazaryan*
4. *Hesablama şöbəsinin müdiri - Qabrilyan və b.*
5. *Rayon Komsomol komitəsində birinci katibdən başqa qalan rəhbər işçilər ermənilərdir.*
6. *Rayon İcra komitəsində - yalnız sədr Şabanovdu, o da nə ətdir, nə balıq. Əsas rolu isə sədr müavini Soqomonyan və kadrlar müdiri Simonyan oynayır.*
7. *Rayon Yerli Sənaye şöbəsinin idarə başçısı - Yandiyan.*
8. *Rayon Yerli Sənaye şöbəsi yanında istehsal-daş karyerinin müdiri, keçmiş starşina - Danelyan.*
9. *Xalq təsərrüfatı İdarəsinin müdiri - Baqramov.*
10. *Kommunal təsərrüfat şöbəsinin müdiri - Soqomonyan.*
11. *Kommunal təsərrüfat şöbəsinin tikinti üzrə müdiri - Virabyan.*
12. *Rayon hamamının müdiri - Mariya (erməni).*
13. *Rayon mehmanxanasının müdiri - Balasanova.*
14. *Əmanət kassasının müdiri - Zaxaryan.*
15. *Dövlət bankının rayon filialının müdiri - Abramova.*
16. *Kənd təsərrüfatı bankının idarə başçısı - Xocanyan.*
17. *Kommunal tədarük idarəsinin rəisi- Arutyunov.*
18. *Yun-dəri kontoru birliyinin idarə başçısı türk ermənisi (kaxtaqan) (Osmanlı imperatorluğunda ərazi – M.C.) – Danelyan Armenakdır.*
19. *Rayon dükanının müdiri – Xocayan*
20. *Artel müdiri – Zaxaryan*
21. *Qida blokunun müdiri – Danelyan*
22. *İdman dükanının müdiri – Marqo (erməni)*
23. *Şəhər sənaye birliyinin sədri – Varyan*
24. *Ot məntəqəsinin müdiri – Karapetyan (kaxtaqan)*
25. *Maşın Traktor stansiyasının direktoru – Sarkisyan*
26. *Rayon prokuroru – Qriqoryan*
27. *Rayon mərkəzində məktəb direktoru ermənidir, müəllimlərin 80%-i ermənidir*
28. *Uşaq evinin müdiri – Baqramov*
29. *Əlillər artelinin müdiri – Qaraqin Danelyan*
30. *Annenfeld alman kolxozunun partkomu – Akopcanov İsaak*
31. *Rayon İcra Komitəsinin partkomunun katibi – Xocayan*
32. *Kooperasiyalar üzrə artellərin partkomunun katibi – Melik və s.*

*Bundan başqa, harada hər hansı bir quruma rəhbər erməni təyin olunursa, orada bütün heyət ermənilərdən ibarət olur. 20.10.40-cı il".*(AR DTX-nin arxivi, inv. N680, s.10).

Məktubla tanış olan Karkaryan onu Azərbaycan NKVD-nin rəhbərliyinə deyil, birbaşa NKVD Şamxor rayon şöbəsinin rəisi leytenant Kalyaqinə göndərir, ona anonim məktubun müəlliflərini tapmağı, həmçinin "almanların Kommunist Partiyasının Rəyasət Komitəsinin Katibi Manuçarovu, guya milliyyətçilikdə günahlandırdıqlarını" xüsusi olaraq qeyd edir. Lakin rayonun müxtəlif dövlət müəssisələrinin rəhbər vəzifələrinə təyin olunmuş ermənilərin seçilmə prinsipləri barədə kadr siyasəti, azərbaycanlıların və almanların hüquqlarının məhdudlaşdırılması, müxtəlif tipli müəssisələrdə konkret faktlara əsaslanan mütənasib nümayəndəliklərin açıq-aydın şəkildə pozulması kimi faktlar diqqətdən kənarda qalır.

Şamxorda NKVD rayon şöbəsi məktubun müəllifinin axtarışı üzrə iş aparır, lakin o, müsbət nəticələrə gətirib çıxarmır. Şübhələr oktyabrın əvvəlində Batumi şəhərinə getmiş Leninfeldin (indiki Çinarlı kəndi) kapelmeysteri Reytenbax Yevgeniy Genrixoviç və Leninfeld məktəbinin müəllimi Leniçek Verner Vilhelmoviçə aparıb çıxarırdı. NKVD-in materiallarına görə "onlar qatı milliyyətçilər idi və ermənilərin Şamxor rayonunda, guya təzyiqi barədə dəfələrlə narazılıqlarını bildirmişdilər" (AR DTX-nin arxivi, inv. N680, s.9).

9 yanvar 1941-ci ildə Kalyagin məktubu Azərbaycan SSR NKVD 3-cü şöbəsinin rəisi baş leytenant Polyanskiyə göndərir: "1940-cı ilin oktyabr ayında Batumidən Bakıya AKP MK-nın Katibi M.C.Bağırovun adına anonim məktub daxil olmuşdu. Orada Şamxor rayonunun rəhbər işçilərinin – ermənilərin bir çoxunun soyadları göstərilmiş və RK KP–nın Katibi Mançurovun milliyyətçilikdə günahlandırıldığı vurğulanır (MK Katibi yoldaş Karkaryanın bizə göndərdiyi məktubun nüsxəsini əlavə edirəm). Xətlərin tutuşdurulması ilə müəllifi müəyyən etmək mümkün olmamışdır, lakin bu fərziyyə də istisna deyildir ki, bu məktubun çatdırılmasında Reytenbax və Leniçek iştirak ediblər" (AR DTX-nın arxivi, inv. N680, s.9).

Ermənilərə almanların münasibəti onlarla istintaq işlərində keçən həbs olunmuş almanların ifadələrində də tanış oluruq. NKVD-nin bu arxiv sənədlərinin əksəriyyətində almanların koloniyanın ictimai həyatının bir çox sahələrində ermənilər tərəfindən təzyiqə məruz qalmaları qeyd edilir. Alman milli məktəblərinin ləğvindən və müəllimlərin qovulmasından sonra onların yeri erməni millətindən olan müəllimlərlə dolduruldu. Bu səbəbdən Helenendorf məktəbinin keçmiş müəllimi, sonralar Bakıya köçmüş və Azərbaycan Dövlət Universitetində işləyən Otto Ventsel qeyd edirdi: "Təhsilin yenidən təşkilinə passiv müqavimət taktikası müəllimləri Helenendorf məktəbindən digər yerlərdəki məktəblərə köçürülməsi zamanı aydın şəkildə büruzə verirdi. Bu tədbir məktəbi alman müəllimlərdən təmizləmək və onu tamamilə digər millətlərin müəllimlərinə, xüsusilə ermənilərin sərəncamına vermək məqsədli tədbir kimi qiymətləndirilir" (M.Jarfali. Politischer Terror und das Schicksal der Aserbaidschanischen Deutschen. Sutgart-2012, p. 147).

NKVD-in məxfi sənədlərində müharibədən əvvəlki dövrə aid və ermənilərin, həmçinin azərbaycanlıların və gürcülərin Qafqaz almanlarına olan münasibətlərini öyrənmək olar. Tiflis şəhərində yerləşən Almaniyanın konsulluğunda gizli səs dinləmə qurğusu yerləşdirilmişdi. Konsulluqda gedən danışıqlardan birinin stenoqramı ilə tanış olmaq maraqlı olardı. 5 yanvar 1941-ci ildə Tiflis şəhərində koloniya sakinləri ilə Tiflisdəki Alman konsulluq evinin idarə başçısı David Lidtke arasında baş tutmuş danışıq zamanı onun tərəfindən belə bir sual səsləndi: "Bu doğrudurmu ki, alman kəndlərində almanları cəzalandırmaq və onları Rusiyadan qovmaq hüququnun onlara verilməsini hakimiyyətə açıq şəkildə bildirən digər millətlər vardır". Almanlardan biri, Şamxor sakini cavab vermişdi ki, belə halın Leninfelddə mövcudluğu ona bəllidir, burada "yaşayan ermənilər və aysorlar qəti şəkildə almanlara qarşı çıxırlar". Konsulluğun əməkdaşlarını həmçinin Cənubi Qafqazın yerli əhalisinin Sovet hakimiyyətinə və Almaniyaya qarşı əhval-ruhiyyəsi də maraqlandırırdı. Annenfeld sakini Reyngold Teodoroviç Qext qeyd etdi ki, "xalq rəzalət içindədir. Sıravi

kolxozçular sovet hakimiyyətinin əleyhinədir, partiya və şura işçiləri isə öz vəzifələrini itirməmək naminə vicdanlarını itiriblər". Qextin fikrincə, "azərbaycanlılar və gürcülər yerli almanlara rəğbət bəsləyir, ermənilər isə onları sıxışdırmağa can atırlar" (M.Jarfali. Politischer Terror und das Schicksal der Aserbaidschanischen Deutschen. Sutgart-2012, p. 149).

1940-cı ildə alman koloniyalarındakı kütləvi xarakter almış köçürülmə əhval-ruhiyyəsinin səbəblərini təhlil edərkən sovetlərin NKVD təşkilatı çoxsaylı amillər arasında almanlara ermənilər tərəfindən olan aqressiv münasibəti etiraf edirlər. Azərbaycan SSR-nin daxili işlər xalq komissarı Yemelyanovun 1940-cı ilin dekabrında AKP MK-ya göndərilmiş məruzə qeydində deyilir: "Köçürülmə əhval-ruhiyyəsinin saxlanılmasında alman kolonistlərə qarşı digər millətlərin bəzi şüursuz elementləri tərəfindən ədavətin təzahürü rol oynayır. Xanlardan həbs olunmuş Vuxrer German sorğuda göstərmişdi ki, Xanlarda yerli ermənilər alman əhalisinə düşmən münasibəti bəsləyir və bunu hər addımda büruzə verməyə çalışırlar. Bu ifadələr Xanlardan olan digər məlumatlarla da təsdiqlənir" (AR DTX-nin arxivi, inv. N681, s.44).

Kənd sovetlərinin, kolxozların sədrlərinin, digər kənd təsərrüfatı obyektlərinin alman millətindən olan rəhbərləri Azərbaycandan deportasiya olunduqdan sonra onların yerlərinə ermənilər təyin olundu. 1941-ci ilin oktyabr ayında almanların Sibirə və Qazaxıstana deportasiyasından sonra onların boşaldılmış kəndlərinə Ermənistandan və İrandan SSRİ-yə köçürülmüş ermənilər məskunlaşdılar. Sənədlərə görə yalnız Leninkəndə (almanların yaratdığı Georqsfeldin 1941-ci ildəki adı. İndiki Çinarlı – M.C.) 40-cı illərdə Ermənistan SSR-dən 200 və İrandan 70 erməni ailələri köçürülmüşdü.

Əvvəlcədən qeyd edək ki, 1948-53-cü illərdə Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası zamanı onların bir hissəsi əvvəllər almanların deportasiya olunduğu Xanlar və Şamxor rayonlarının yaşayış məntəqələrində yerləşdirilməsi planlaşdırılırdı. Lakin artıq Azərbaycanın bu gözəl yerlərində (Georqsfeld - indiki Çinarli, Helenendorf - indiki Goygol və Annenfeld - indiki Şəmkir) məskunlaşmış ermənilər buna qarşı çıxdılar. Maraqlıdır ki, Azərbaycana köçən ermənilərin bəziləri bu və ya digər səbəblərdən Ermənistan SSR-də vaxtilə cinayət məsuliyyətinə cəlb olunmuşdular. Bu fakt Ermənistandan olan məcburi köçkünlərdən biri, Xanlarda ötən əsrin 30-cu illərdə Helenendorf hesablama şöbəsinin müdiri, alman Emil Koxun evində sığınacaq almış – Rzayev Ağamirzə Bağır oğlu tərəfindən açılmışdır. Vaxtilə A.Rzayev Ermənistan NKVD-də həbsxanada nəzarətçi işləmişdi. Öz xidməti sahəsində o, daşnaklarla, cinayətkarlarla və erməni milliyyətindən olan belə kateqoriyadan olan şəxslərlə üzləşmişdi. A.Rzayev Xanlarda sonunculardan bir çoxunun indi bu şəhərdə yaşadığını müəyyən etmişdi. Bununla əlaqədar olaraq Ağamirzə Rzayev, Azərbaycan rəhbərliyinə müraciət etmişdi: "Yoldaş Bağırova. Ermənistanda iş kəsilən, istintaq altında olan şəxslərin əksəriyyəti hal-hazırda Kirovabadda (indiki Gəncə şəhəri), Xanlarda, Hacıkənddə yerləşir...". Onlar arasında A.Rzayev Böyük-Vədi rayonunun NKVD rayon şöbəsinin keçmiş rəisinin, Xanlar rayon komitəsi partiyasının ikinci katibinin, çörək zavodunun direktorunun, Kirovabad şəhəri Nizami rayonunun birinci katibinin, Xanlar Rayon İcra komitə sədrinin qohumunun, hərbi ticarət bazasının direktor müavininin və s. adlarını çəkir.

Beləliklə, 1948-ci ilə qədər, yəni SSRİ hökumətinin Ermənistan SSR-nin ərazisindən azərbaycanlıların deportasiyası barədə Qərarı qəbul edilənə qədər Xanlarda, Helenendorf məktəbinin pedaqoqu Otto Ventselin sözləri ilə desək "koloniyanın erməniləşdirilməsi" demək olar ki tam şəkildə aparılmışdı. Hələ 1940-cı ildə Helenendorf məktəbinin keçmiş müəllimlərinin yığıncağında alman dili müəlliməsi Anna Vuxrer qeyd edirdi: "Bizim yaxşı baxımlı, geniş küçələri olan kəndlərimizə və evlərimizə qonşu rayonlardan olan ermənilər öz vəhşi nəzərlərini salıblar" (AR DTX-nin arxivi, PR-32530, s.72).

Aralarında Rayon icra komitəsinin sədri Xocayanın (almanlar tərəfindən Mir Cəfər Bağırova 1940-cı ildə göndərilən məktubda onun RİK-də partkom işlədiyi göstərilmişdi) fərqləndiyi Şamxor rayonunun partiya və hüquq mühafizə orqanlarının əsasən ermənilər olan rəhbər işçiləri 1948-ci ildə Ermənistandan deportasiya edilmiş azərbaycanlıların təqibini təşkil edirdilər. Rəhbər erməni işçilər tərəfindən bir çox ermənilərin adından Moskva və Bakının müxtəlif instansiyalarına şikayətlərin göndərilməsi təşkil olundu. Guya ki, yerli sakinlər köçkünlər tərəfindən sıxışdırılırdılar. Onlar tələb edirdilər ki, artıq Ermənistandan deportasiya olmuş bu insanları Azərbaycanın başqa rayonlarına köçürsünlər. Buna nail olmayan Şamxor rayonunun kommunist partiyasının rəhbərləri və rayon icra komitəsi 1949-cu ilin sentyabrında kənd aktivlərindən ibarət komissiya yaratmaq barədə qərar qəbul edir. Bu komissiya köçkünlər olan yerləri gəzib dolanır, "qeyri-qanuni gələnlər barədə aktlar" tərtib edir və dərhal onlardan üç gün müddətinə Leninkənd kəndindən çıxmaq barədə qəbz alırdılar. Köçkünlər isə Bakıdakı rəhbərlərə onları Şamxor hakimiyyətinin özbaşınalığından müdafiə edəcəyinə ümid edərək ora şikayət ərizələri göndərərək onlardan kömək istəyirdilər. Bu məktublardan birini nümunə olaraq göstərək: *"Azərbaycan KP MK-nin katibi yoldaş Bağırova Ermənistandan Şamxor rayonu Leninkənd kəndinə köçənlərdən. Biz 1949-cu il SSRİ Nazirlər Sovetinin Sərəncamına əsasən Ermənistandan Leninkəndə köçürüldük. Burada bir qrup erməni bizə təqiblər təşkil etmiş, rahat yaşamağa imkan vermirlər, onlar burjuaziya ünsürləri, millətçilik daşıyıcılarıdır, bizə qarşı uydurma materiallar yazırlar. Onlar aşağıdakılardır:*

*1. Uzunyan Arutyun – kolxozun əmlakını mənimsədiyinə görə partiyadan uzaqlaşdırılmış və 5 il azadlıqdan məhrum olma ilə məhkum olunmuşdur.*

*2. Qriqoryan Usik – partiya sıralarından çıxarılmış və 5 il azadlıqdan məhrum edilmə hökmü verilmişdir.*

*3. Şahnazaryan Qurgen – Ermənistandandır, atasının daşnakların rəhbəri olduğunu gizlədərək partiya üzvlüyünə daxil olmuşdur.*

*Şamxor RİK-nin sədr müavini Xocayan yığıncaqda dedi ki, onda Ermənistandan gələnlərə qarşı 150-200 material vardır. Xocayan Leninkənd kəndində yaşayan ermənilərdən gəlmə azərbaycanlılar barədə yalan materiallar toplayır. Yoldaş Bağırov, məgər biz Vətənimizin azadlığı uğrunda az qan axıtmışıqmı (2-ci dünya müharibəsində iştirak nəzərdə tutulur – M.C.). Əgər bizi buradan da qovurlarsa, onda nə üçün bizi Ermənistandan köçürdülər? Madam ki, bizi buradan çıxartmaq qərarına gəlmisinizsə, o zaman xahiş edirik ki, yoldaş Arutyunovla (o vaxtlar Ermənistan KP MK-nin birinci katibi) danışasınız ki, bizə Ermənistandakı təsərrüfatımızı qaytarsınlar və biz öz doğma kəndlərimizə qayıdaq. Səbirsizliklə cavabınızı gözləyirik. 7 sentyabr 1949-cu il"* (AR DTX-nın arxivi, P-39, iş N1, s.262).

29 sentyabr 1949-cu ildə Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri S.Yemelyanov Kirovabad şəhərində ezamiyyətdə olan dövlət təhlükəsizliyi nazirinin müavini E.Kərimova 243-АИ saylı məktub göndərir: "Yoldaş Bağırov tapşırdı ki, məktubda qeyd olunanlar yoxlanılsın. Burada milliyyətçilik ünsürlərinin provokasiyası var ya yox." Həmçinin Bakıdan Kirovabad şəhərinə Azərbaycan SSR dövlət təhlükəsizliyi nazirliyinin 5-ci bölməsinin rəis müavini etnik erməni Abramov da göndərilir ki, vəziyyəti yerindəcə araşdırsın.

18 oktyabr 1949-cu ildə M.C.Bağırova dövlət təhlükəsizliyi naziri Yemelyanovun imzası ilə məlumat göndərilir: "Sizin tapşırığınızla biz faktların yoxlanışını apardıq... Köçkünlər yerli sakinləri sıxışdırmağa başlayıblar, bu səbəbdən də sonuncular rəhbər orqanlara çoxsaylı şikayətlər göndərmişlər. Bu şikayətlərin araşdırılması üçün Azərbaycan SSR Nazirlər Soveti yanında Köçkünlər İdarəsinin nümayəndələri gəlmişlər, lakin Leninkənd kəndində yaranmış vəziyyətin yoluna qoyulması üçün hər hansı bir ciddi ölçü tədbirləri görməmişlər.

Köçkünlərin əksər hissəsi qəti şəkildə Leninkənd kəndindən çıxmaqdan imtina etmiş və öz nümayəndəlirini seçərək rayon rəhbərliyinin fəaliyyəti barədə şikayətlərini çatdırılması məqsədilə onları Bakıya göndərmişlər. Bəzi millətçiliyə köklənmiş şəxslər isə, guya Şamxor RİK sədrinin müavini Xocayan başda olmaqla erməni sakinlərinin Ermənistandan gəlmiş azərbaycanlılara qarşı təqib təşkil etməsi barədə provokasiya xarakterli anonim bəyanatlar tərtib etməyə başlamışlar". Qeyd edək ki, köçkünlər instansiyalara olan müraciətlərini imzalamışdılar, lakin dövlət təhlükəsizlik nazirliyi məsələləri öyrənmək əvəzinə öz işini anonim məktubların müəllifllərinin müəyyənləşdirilməsinə yönəltmişdi. Daha sonra dövlət təhlükəsizlik nazirliyinin arayışında qeyd olunur: "Müəyyən olunduğu kimi, bir anonim bəyanatın müəllifi 1920-ci il təvəllüdlü, 1945-ci ildən kommunist partiyasının üzvü Məmmədov İsgəndər Əli oğludur. İkinci anonim bəyanatın müəllifliyində isə 1926-cı il təvəllüdlü Xıdırov Oruc Hüseyn oğlu şübhəli bilinir. Məmmədov və Xıdırov tərəfimizdən araşdırılır və istintaqın gedişində onların cinayət məsuliyyətinə cəlb olunması məsələsi həll olunacaqdır. S.Yemelyanov" (AR DTX-nin arxivi, 1948-ci il, İstiqamətləndirici, t.1, s.53).

Bu, Azərbaycan SSR-nin dövlət təhlükəsizliyi üzrə həmin naziridir ki, hələ 7 may 1948-ci ildə DTN-nin Azərbaycan üzrə rayon bölmələrinə xəbərdarlıq göndərmişdi ki, "Ermənistandan sərhəd vasitəsilə Azərbaycana yaşayış üçün gəlmiş repatriant-ermənilərin keçid yerləri vardır. Repatriantlar arasında daşnakların və Sovet hakimiyyətinə qarşı düşmən mövqeyi tutan digər şəxslərin olmasını nəzərə alaraq onları müəyyənləşdirmək və siyahılarını tərtib etmək lazımdır". Lakin erməni millətçiləri arasında daşnakların olması barədə azərbaycanlıların öz müraciətlərində yazdıqları faktlar diqqətdən kənarda qalmışdı.

Beləliklə, alman kolonistlərin ardınca artıq azərbaycanlılar da Azərbaycanda həm ermənilər tərəfindən, həm də onların kömək üçün üz tutduqları sovet hakimiyyəti olan partiya və hüquq mühafizə orqanları tərəfindən təzyiqlərə məruz qalırdılar.

## ƏDƏBİYYAT

AR DTX-nin arxivi, 1948-ci il, İstiqamətləndirici, t.1, s.53.
AR DTX-nın arxivi, P-39, iş N1, s.262.
AR DTX-nin arxivi, PR-32530, s.72.
AR DTX-nin arxivi, inv. N657, s.29.
AR DTX-nin arxivi, inv. N680, s.10.
M.Cəfərli. Siyasi terror və Azərbaycan almanlarının taleyi. Bakı-1998.
M.Jarfali. Politischer Terror und das Schicksal der Aserbaidschanischen Deutschen. Sutgart-2012.
Konkordia. Wissenschaftliches Informationsbulleten (sentyabr), Bakı-2001.